# Tarixə düşən dəyərli şəkil

## *Heydər Əliyev L.İ.Brejnyev Bakıda olarkən kollektiv şəkil çəkilən zaman öz yerini maestro Niyaziyə niyə verib?*

## *Mərhum şair Tofiq Bayramla görüşümün pərdəarxası məqamları*

Ramiz MÖVSÜM



**1982-ci ilin soyuq oktyabr günlərinin birində, Nizami adına kinoteatrın qarşısında şair Tofiq Bayramla və həyat yoldaşı Zərifə xanımla təsadüfən rastlaşdım. Onlar harasa tələsirdilər. Tofiq məndən ərkyanə soruşdu:**

- Dostum, burada niyə dayanmısan?

Dedim:

- Kinoya getmək istəyirəm.

Dedi:

- Bəlkə bizimlə gedəsən. Kinoya sonra da baxarsan...

Dedim:



- Əzizim, axı bilmirəm siz hara gedirsiniz?

Dedi:

- Maestro Niyazi Fransa səfərindən qayıdıb, onun görüşünə gedirik. Demək olar ki, çatmışıq, mənzili yolun o tərəfindədir.

Dedim:

- Qardaşım Tofiq, mən hara, dünya şöhrətli maestro Niyazi hara? Mən o boyda sənətkara tay deyiləm. Yaxşısı budur, siz gedin, mən də kinoya baxım.

Şair dedi:

- Dostum, sən şairliyinlə bərabər, həm də həkimsən axı. Maestro Niyazinin həyat yoldaşı Həcər xanım neçə illərdi ki, şəkər xəstəliyindən əziyyət çəkir. Ona məsləhətlər verərsən.

Tofiqin bu sözlərindən sonra, mən yaxamı kənara çəkə bilmədim onlarla getməyə razılıq verdim.

Dedim:

- Axı mən əliboş gedə bilmərəm, gərək nəsə alım!..

Tofiq dedi:

- Ay doktor, nə lazımdırsa, almışıq, Zərifənin çantasındadır.

Dedim:

- Qardaş, siz başqa, mən də nəsə almalıyam!..

O, mənim inadımdan dönməyəcəyimi görüb, dedi:

- Onda mağazadan bir konyak götür, kifayətdir.

Mən mağazadan "KOROĞLU" konyakını alıb gəldim. Zərifə xanım içki apardığımıza görə, Tofiqə gileygüzar elədi...

Biz yolu keçib, o tərəfdəki yaraşıqlı beş mərtəbəli, daş binaya yaxınlaşdıq. Pilləkənlərlə qalxıb maestrogilin qapısına yaxınlaşdıq. Tofiq qapının zəngini basdı. Xadimə qapını üzümüzə açdı. Onunla salamlaşıb, içəri keçdik. Dəhlizdə bizi maestro Niyazi özü qarşıladı. O, hər birimizlə mehribancasına görüşdü. Tofiq məni maestroya təqdim etdi. O, həkim olduğumu bilən kimi, yan otağın qapısını açıb, səsləyincək dedi:

- Həcər, əzizim, Tofiq Bayram Zərifə xanımla gəlib, özləriylə həkim də gətiriblər!.. Daha xəstəxanaya gedəsi olmadıq... Nə sorğu-sualın var, ondan soruş...

Maestronun ardınca yataq otağına daxil olduq. Həcər xanımla salamlaşdıq. Zərifə xanım əyilib onun üzündən öpdü, qırışmış əllərinə sığal çəkdi, dümağ saçlarını tumarlaya-tumarlaya dedi:

- Əziz bacım, yastığın yüngül olsun, Allah sənə qıymasın, aramızdan əskik olmayasan!..

Həcər xanım şəkərin illətindən danışa bilmədi, başıyla ona "sağ ol!.." dedi.

Mən də Həcər xanımın xəstəliyilə əlaqədar olaraq, ona bir çox faydalı məsləhətlər verdim.

Maestro bizi qonaq otağına dəvət etdi. Onun təklifiylə süfrə arxasında əyləşdik. Nimçələrə bişib, buxarda dəmdə qalan qarabaşaq çəkildi, üzərinə də iki-iki kotlet qoyuldu. (Bu xörəyin Həcər xanımın şəkər xəstəliyinə uyğun olaraq, bişirildiyi bizdə şübhə doğurmadı). Bu arada Tofiq Bayram Zərifə xanımın çantasından "KOROĞLU" konyakını çıxardıb süfrəyə qoydu.

Maestro tərs-tərs ona baxıb dedi:

- Tofiq, bu nədir belə?

Tofiq sıxıla-sıxıla dedi:

- Maestro, təşrif gətirmişik ki, sizin Fransadan gəlişinizi xudmaniqeyd eləyək!..

Niyazi bəy acıqlı-acıqlı ona dedi:

- Tofiq, səndə bu nə adətdir, hara gedirsənsə, içkini də özünlə aparırsan...

Tofiq pərt oldu, söz tapmadı deməyə... Onun üzünə baxdım: kefinin pozulmasına şərik olduğumu bildirmək üçün, başımı buladım...

Maestro sözünə davam etdi:

- Şair, bizim elimizin gözəl bir deyimi var ey: - Üstü bəzək, altı təzək. Gətirdiyin onnandı!.. Mən beləsini dilimə vurmuram, sənə də məsləhət görmürəm.

Bu yerdə Tofiqin dili açıldı:

- Maestro, olanımız budur də; yerli brenddir!..

Maestro:

- Tofiq, onu burda qoyma, gedəndə apar, - deyib, otaqdan çıxdı. Bir neçə dəqiqədən sonra, bəzəkli bir qutuyla qayıdıb gəldi.

Dedi:

-Tofiq, Fransadan qayıdarkən, bu qutudakı konyakları hədiyyələrimlə birgə mənə veriblər.

O, qutudan bir xrustal qrafin çıxardıb Tofiqə verdi.

Dedi:

- Tofiq, bu, sənin payındır. Qaldı ki, bugün dietik süfrədə konyak içməyimiz məsləhət deyil. İnşallah, Həcər xanımın əhvalı düzələndə, gələrsiniz Fransız konyakının dadına baxarıq.

Tofiq Bayram razılaşdı. Biz yüngülvari nahar edib, üstündən də pürrəngi çay içdik. Çay süfrəsi yığışdırıldıqdan sonra, maestro ölkəmizdə və həm də qastrol səfərlərində olduğu xarici ölkələrdə çəkilən qalaq-qalaq şəkillərini masanın üstündə sərgiləyib, bizə göstərdi. Maestro şəkilləri bir-bir seçib, Zərifə xanıma verirdi, o da şəklə baxandan sonra, Tofiqə ötürürdü; Tofiq də öz növbəsində şəkilləri nəzərdən keçirdikdən sonra, mənə verirdi. Mən də hər şəklə baxdıqdan sonra, onu yığılan şəkillərin üstünə qoyub, dəstələyirdim. Növbəti dəfə mənə gəlib çatan böyük ölçülü bir fotoşəkil nəzər-diqqətimi cəlb etdi. Bu TASS-ın xüsusi foto müxbiri Roxlinin çəkdiyi və siyasi mahiyyət daşıyan bir şəkil idi. Şəkildəki bir məqam məni çaş-baş salmışdı. Bununla əlaqədar olaraq, maestroya sual vermək istəyirdim... Lakin şair dostum Tofiq Bayramın danlanmasından sonra, maestro Niyazi kimi çox ciddi, həm də zəhmli bir şəxslə təmasda olmağa ehtiyat edirdim. Amma bütün bunlara baxmayaraq, sualıma ondan cavab almaq istəyirdim. Odur ki, özümü toparlayıb, sualımı verdim:

- Çox hörmətli maestro, bir şəklə baxıram: SSRİ-nin Baş katibi L.İ.Brejnev Bakıda olarkən, Azərbaycan MK-nın kollektivi ilə şəkil çəkdirib. Onların arasında mədəniyyət xadimləri də görünür. Bu şəkildə Siz də varsınız. Hamıdan fərqli olaraq, Siz L.İ.Brejnevlə çiyin-çiyinə dayanmısınız. Azərbaycan MK-nın Birinci katibi Heydər Əliyev isə sizin arxanızda dayanıb. Bu necə baş verib?..

Maestro mənim sualımı cavablandırmamışdan əvvəl, üzünü Tofiqə tutdu:

- Şair, yenə xəyallara dalmısan. O sualı birinci gərək sən mənə verəydin, axı o şəklə birinci sən baxmısan...

Tofiq bir söz demədi. Görünür, pərtliyi hələ keçməmişdi... Bunu duyan maestro ona çox bənd olmadı, dedi:

- Həkim, sualınız inanın ki, ürəyimcə oldu. O şəkildə Heydər Əliyevlə mənim öz yerimizdə olmamağımız təsadüfən baş verməmişdi. Bildiyimiz kimi, 1982-ci ildə növbəti 5-illiyin planlarını vaxtından əvvəl yerinə yetirdiyimizə görə, SSRİ-nin Baş katibi L.İ.Brejnev respublikamızı Lenin ordeniylə təltif etmək məqsədilə, sentyabr ayında Bakıya gəlmişdi. O, təntənəli surətdə üçrəngli bayrağımıza Lenin ordenini sancdı, xalqımızı bu qələbə münasibətilə təbrik etdi. Sonra SSRİ-nin Baş katibinin iştirakı ilə kollektiv şəkil çəkdirmək qərarına gəldik. Heydər Əliyev öndə L.İ.Brejnevlə yanaşı dayanmışdı. Fotoqraf şəkil çəkən məqamda, Heydər Əliyev əlini yuxarı qaldırıb, ona "saxla!" işarəsi verdi. Həmən dəqiqə geriyə qanrılıb, "Niyazi, hardasan? Gəl bura!.." - deyib, məni səslədi. Mən kütlənin içindən çıxıb, yeyin addımlarla onun yanına getdim. O, məni öz yerində qoyub, arxamda dayandı və həmən anda əliylə Roxlinə "çək!" işarəsi verdi. O da çəkdi.

Foyeyə çıxanda, mən ölkə başçımızdan niyə belə etdiyini soruşdum. Heydər Əliyev gülümsəyərək dedi:

- Niyazi,biz siyasi xadimlərik, sən isə musiqi mədəniyyətimizin özülüsən, ölkəmizin iftixarısan!.. Düşündüm ki, birdən bu şəkildə düşməzsən. Odur ki, öz yerimi sənə verdim. Bu adi şəkil deyil, tarixi sənəddir!..

Mənə verdiyi yüksək qiymətə görə, Heydər Əliyevə dərindən təşəkkürümü bildirdim!

...Elə bu arada Tofiq Bayram həmən şəkili məndən istədi. Şəkli ona verdim. Bu dəfə Tofiq eynəyini taxıb, şəklə diqqətlə baxdı... Bunu görən maestro ona dedi:

- Əzizim Tofiq, hər birimiz bütün sahədə Heydər Əliyevdən nümunə götürməliyik! Onun kimi diqqətli və həm də səmimi olmalıyıq!.. Yəqin ki, o şəklə təkrar baxmaqda, özün üçün nəticə çıxaracaqsan!..